

# Yaxşı insan həm də Allah nemətidir

*Ə.V.Çaylı*
*AYB və AJB-nin üzvü*

**Belə bir ifadə var: "Yaxşı insan hər kəs üçün nemətdir, yaxşı insan həm də Allahın nemətidir. Necə olsa, gözəl əxlaqlıdır, hər zaman yaxşı davranar". Bu cür insanların xoş niyyətlərindən sui-istifadə etmək Quran əxlaqına və vicdana ziddir. Səmimi deyək, görkəmli alim Abbasqulu Nəcəfzadə də yaxşı, əvəzsiz insanlardan biridir... Məhz buradan bəlli olur ki, onun örnək ömrü övladlarının həyatına müsbət sirayət edib.**

Xalqımızın sivilizasiyalı həyatında böyük-kiçiklik həmişə ön sırada olub. Min illər həyatımızda bu ali missiya öz örnəkliyi ilə diqqət çəkib. Heç şübhəsiz, sizin də dünyagörüşünüzdə bu zəruri hal özünü geniş rakursda göstərir. Bu mənada, Abbasqulu Nəcəfzadə də Allaha bağlılığı, insanlara qayğısı ilə çoxlarını tale yüklü həyata qaytarırıb. Nəticədə, ata-babalarının yaşadığı ömrə qabil olub, içində Vətənə həmişə bir ehtiram böyüdüb.

Qısa tərcümeyi-hal:

Abbasqulu İsmayıl oğlu Nəcəfzadə AMK-nın "Milli musiqinin tədqiqi" elmi-tədqiqat laboratoriyası-nın rəhbəri, "Milli musiqinin tarixi və nəzəriyyəsi" kafedrasının professoru, sənətşünaslıq üzrə elmlər doktorudur. 1957-ci il təvəllüdlüdür.

Nəcəfzadə Abbasqulu İsmayıl oğlu 1978-ci ildə Sumqayıt Musiqi Texnikumunu kamança ixtisası üzrə fərqlənmə diplomu ilə, sonra isə 1983-cü ildə Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasını "Azərbaycan xalq musiqisi - kamança" ixtisası üzrə bitirib, ona konsert ifaçısı, müəllim, xalq çalğı alətləri orkestri dirijoru ixtisası verilib. 1976-cı ildən əmək fəaliyyətini fasiləsiz olaraq musiqiçi, ifaçı, müəllim, həm də müxtəlif ansamblların rəhbəri kimi davam etdirir. Hazırda o, Azərbaycan Milli Konservatoriyasının "Milli musiqinin tədqiqi" elmi-tədqiqat laboratoriyasının rəhbəri və "Milli musiqinin tarixi və nəzəriyyəsi" kafedrasının professorudur.

Abbasqulu Nəcəfzadə eyni zamanda "Konservatoriya" elmi dərgisinin məsul katibidir. "Azərbaysan nəfəs alətləri (orqanoloji-tarixi tədqiqat)" mövzusunda "Musiqi sənəti" ixtisası üzrə dissertasiya işini müdafiə edərək sənətşünaslıq namizədi alimlik dərəcəsinə layiq görülüb. Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının 30 noyabr 2010-cu il tarixli (protokol №36-k) qərarı ilə ona "Musiqi sənəti" ixtisası üzrə dosent elmi adı verilib. O, "İdiofonlu çalğı alətlərinin Azərbaycan örnəkləri, mənşəyi və yeni təsnifatı" mövzusunda "Musiqi sənəti" ixtisası üzrə dissertasiya işini müdafiə edərək sənətşünaslıq üzrə elmlər doktoru alimlik dərəcəsinə layiq görülüb. Respublikada yaradılan ilk peşəkar folklor ansambllardan biri - "Dastan"ın musiqi rəhbəri olub. 2009 və 2013-cü illərdə "Muğam aləmi" Beynəlxalq elmi-simpoziumunda öz maraqlı çıxışları ilə diqqəti cəlb edib.

Abbasqulu Nəcəfzadənin mütəmadi olaraq Respublika və onun hüdudlarından kənarda mətbuat səhifələrində elmi araşdırmaları, məqalələri çap olunur. O, beynəlxalq və respublika üzrə keçirilən elmi simpoziumlarda, konfranslarda iştirak edir. Bu sahədə zəngin biliyi nəzərə alınaraq bir sıra nüfuzlu konfranslarda bölmələrə rəhbərlik ona həvalə edilib, yeni moderator təyin olunub. Müxtəlif mövzu və janrlarda 20-dək əsərin (kitab, monoqrafiya, tədris proqramları, əlyazmaları tərtibçisi, dərs vəsaitləri) və 100-dən artıq elmi məqalənin müəllifidir.

Abbasqulu Nəcəfzadənin musiqi mədəniyyətimizin (muğam, rəqs, çalğı alətləri və s.) təbliğində də böyük xidmətləri var. O, Az.TV-də 15 ildən artıq bir dövrdə Azərbaycan ifaçılıq sənətindən və qədim çalğı alətlərimizdən bəhs edən "Yallı" verilişinin aparıcısı olub. O, 2013-cü ildən İctimai televiziya və radio yayımları şirkətində "Yurd inciləri" adlanan verilişin həm məsləhətçisi, həm də aparıcısıdır.

Abbasqulu Nəcəfzadə AMK-nın professor-müəllim və tələbə kontingenti arasında təcrübəli müəllim, xoşxasiyyətli, qayğıkeş insan kimi xüsusi hörmətə malikdir.

Abbasqulu Nəcəfzadə öz ömür yolunda öz fəhmi ilə taleyi arasında uzun məsafə cızıb. Tanrı bəndəsi ola bilmək üçün bəlkə də bütün həyatını sərf edib... Öz insan varlığını taleyin ucalığında tapıb. Təkcə tapmayıb, həm də bu varlıqda neçə-neçə qəlbə işıq salıb, çoxlarını düzgün ünvana istiqamətləndiib, onları ruhi sarsıntılara məruz qalmaqdan qurtarıb. Onun Allaha sevgisi daimidir. Bu sevgidə təzahür edən inama görə hər kəsin məhəbbətini qazanıb və qazanır.

Əslində, xalqımız həyatın və taleyin yüksəliş dövrünü çox görüb. Ruha zidd əməllər bu yüksəlişə qarşı çıxsa da, Abbasqulu Nəcəfzadə kimi zatı pak, qəlbi təmiz şəxsiyyətlərin sayəsində yetişən nəsillərdə həyata sevgi, zəhmətə bağlılıq itməyib. Belə deyək, o və onun kimilər insanları bir növ, başqalaşmaq qorxusundan azad edir. O, həyata qarşı meyllərini zamanın təsir gücü ilə dəyişməyə müvəffəq olduğu üçün əsl vətəndaş missiyasını yerinə yetirir. O, həm də - Vətən keşiyində daim ayıq-sayıqdır, - deyir. Bu, onun torpaq yanğısından şaxələnir. Tanrının lütfü və məhəbbəti ilə o, özü də bu ali mərtəbəyə ucala bilib.



Əslində, hər kəs yaxşı ad qoymur... İnsanlıq barədə danışanda dərhal yaxşı, xeyirxah insanlar yada düşür. Elə insanlar var ki, onların cəmiyyətimizin inkişafına sərf etdikləri əməksevərlik kifayət qədər önəm kəsb edir, bundan da xalqımızın parlaq sabahlarına səmimiyyət və ehtiram sıçrayır. Ümumiyyətlə, Abbasqulu Nəcəfzadə kimi yaxşı insanlar bütün varlığı ilə bir şəfqət abidəsidir. O da xeyirxah insanlar kimi xeyirxah əməli insanların örnək davamçısıdır. Nə xoş ki, onun insan çöhrəsində həyat da, tale də işıqlıdır.

Qəlbi Allah sevgisi ilə dolu olanların həyata baxışları da təmiz olur. Dəyərli şəxsiyyət, görkəmli alim elmi və ictimai sahədə böyük hünər göstərmiş Abbasqulu Nəcəfzadənin də həyat baxışlarındakı səmimiyyət bu sevgidən irəli gəlir!

Abbasqulu Nəcəfzadə haqqında silsilə şeir və məqalələr yazılıb. Məsələn, şair Nəsimi Mövlam xeyirxahlıq kodeksləri ehtiva edən şeirində yazır:

**...Abbasqulu öyrənib dilin bir çox alətin,**
**Bizə fəxrdir bu alimi, yazarı xalqımızın.**

Şair İlqar Dağlı isə belə deyir:

**...Nəcəfzadələrin adı ellərdə,**
**Əyilməz dağ təki vüqarımız var...**

Əhsən Rəhmanlı yazır:

**Daim yaşa həyatda azadə,**
**Səninlə fəxr edək, Nəcəfzadə...**

Vaqif Yaquboğlu da bu zəminə əsaslanır:

**Nur tökülür üz-gözündən, ay hacı,**
**Bal süzülür hər sözündən, ay hacı...**

Bəli, Abbasqulu Nəcəfzadə insan kimi insan, vətəndaş kimi vətəndaş, ruhu Allah sevgisi ilə dolu ziyalı, böyük bir nəslin ucalıq etalonu, dəyərli vətənsevər, elin güvənc yeri, örnək şəxsiyyət, nümunəvi davranışları ilə böyük-kiçik məhəbbəti qazanan Tanrı bəndəsidir. Bu səbəbdən o, həqiqi mənada yetişən nəsillərə bir nümunədir.

Mən Əli Vahid Çaylı, Abbasqulu Nəcəfzadə şəxsiyyəti barədə yazdığım şeirdə də bir-iki kəlmə ilə bədii obraz cızmışam. Onu oxucularımıza təqdim edirəm.

### *Abasqulu nişanəsi var*

**Onun barmağında da ilahi bir güc,**
**Tanrı firqətindən gələn səsi var.**
**Qazan xan atının nalından qopan**
**Bir od parçası, ah-naləsi var.**

**Yüz aləm canlanır baxışlarında,**
**Möcüzə rəngi var naxışlarında.**
**Həyatın enişi-yoxuşlarında**
**Hələ açılmamış neçə yaşı var.**

**Çaldıqca "Cəngi"ni o, yana-yana,**
**Təbiət özü də gəlir ilhama.**
**Qarşında baş əyir dünya, ay ana,**
**...Adəmin, Həvvanın nişanəsi var.**

**Qobustan qayası verib baş-başa,**
**Baxmayır bahara, baxmayır qışa.**
**Sən sev Abasqulunun qəlbini oxşa,**
**Yüz nərə baxışı, bir xanəsi var.**

**Xudadan gəlibdir ona istedad,**
**Onunçun qəribə görünmür həyat.**
**Bizlərə doğmadı, kimlərəsə yad,**
**Qulaq eşitməyən "Şeşəngi"si var.**

**Əlvahidin dərdi qəmə yüklüdü,**
**Zilindən endiyi bəmə yüklüdü...**
**Keçmişim, sabahım sənə yüklüdü,**
**Bəs indi kimlərin bəhanəsi var.**

ədalət.-2016.-16 dekabr.-S.4.